Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 24.12.2012-ci il tarixli 1217050000004800 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 36

## “*Kommersiya hüquqi şəxsin adının unikallığının yoxlanılması” elektron xidməti üzrə inzibati reqlament*

### 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Kommersiya hüquqi şəxsin adının unikallığının yoxlanılması.*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət Azərbaycan Respublikasında yeni yaradılacaq kommersiya hüquqi şəxsinin təsisçi tərəfindən ona verilməli adın unikallığının yoxlanılmasından ibarətdir.*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 50.2-ci və 50.3-cü maddələri, “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsi,Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş, 1 nömrəli əlavə - “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin Qaydalara 1 nömrəli əlavə, eləcə də "Elektron xidmət növlərinin Siyahısı"nın 7.47-ci bəndi.*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyi.*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Yoxdur.*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Bu sahədə göstərilən elektron xidmət tam avtomatlaşdırılmış, həmin xidmətin yerinə yetirilməsi prosesi tamamilə informasiya sistemləri tərəfindən həyata keçirilir.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Elektron xidmətin icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Dövlət qeydiyyatına alınacaq kommersiya hüquqi şəxsinə unikal (təkrarolunmaz) xüsusi ad seçilir.*

### 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnformativ.*

**2.2. Elektron xidmət üzrə ödəniş:** *Ödənişsiz.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Fiziki və hüquqi şəxslər.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin “E-xidmətlər” bölməsi (https://www.e-taxes.gov.az/ebyn/TaxPayerChecker.jsp), http://www.e-gov.az.*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

*- http://www.taxes.gov.az/,*
*- https://www.e-taxes.gov.az/,*
*- http://www.e-gov.az;*
*- Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195);*
*- Vergi ödəyicilərinə xidmət strukturları (müvafiq idarə və şöbələr);*
*- Vergi ödəyicilərinə xidmət mərkəzləri;*
*- office@taxes.gov.az*

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Elektron xidmətin göstərilməsi üçün sənəd tələb olunmur.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnformativ növlü elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.**

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.3.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** *Sorğunun yerinə yetirilməsindən heç bir halda imtina edilmir.*

**3.4. Sorğunun icrası:**

**3.4.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:** *Yeni yaradılacaq kommersiya hüquqi şəxsi üçün seçilmiş adın (kommersiya hüquqi şəxsin adının təşkilati-hüquqi formaya qədər olan hissəsi) böyük latın hərfləri ilə sistemə daxil edilir.*

*Sorğu sistemə daxil ediləndən sonra kommersiya hüquqi şəxsin adının unikal olub-olmadığı barədə məlumat ekrana çıxır.*

*İstifadəçinin istəyindən asılı olaraq, ona oxşar adlı kommersiya hüquqi şəxslərin adlarına baxış imkanı yaradılır.*

*Elektron xidmətin göstərilməsinə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin iqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı baş idarəsi və İnformasiya texnologiyaları və Proqram təminatı şöbəsi məsuliyyət daşıyır.*

**3.4.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və (və ya) maksimal yerinə yetirilmə müddəti:** *Kommersiya hüquqi şəxsinin adının unikal olub-olmadığı və oxşar adlı hüquqi şəxslərin adları barədə məlumatların ekrana çıxarılması, sorğunun informasiya sistemində emalı müddətindən asılı olaraq yerinə yetirilir.*

**3.4.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** *Yoxdur.*

**3.4.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** *Sorğunun cavablandırılması informasiya sistemində sorğunun emalı müddətindən asılıdır. Sorğuya baxılmasının nəticələrinə dair hər hansı sənəd təqdim olunmur.*

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.5.1. Nəzarət forması:** *Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.*

**3.5.2. Nəzarət qaydası:** *Bu xidmətin yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının Vergilər Nazirliyinin İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi tərəfindən həyata keçirilir və bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195) fəaliyyət göstərir.*

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər.*

**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** *Elektron xidmətin göstərilməsindən qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.*

**3.6.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** *İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.*

**3.6.3. Şikayətin baxılma müddəti:** *Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunun 78-ci maddəsinə əsasən, 1 ay müddətinə baxılır.*

**3.6.4.** *Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.*

*** * ***